AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 28.12.2020 |
| Qeydiyyat nömrəsi | 1000/04/002 |
| Adı | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 2012-ci il 5 iyul tarixli 100/02/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının daşınması Qaydaları”nda dəyişiklik edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 13.01.2021 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15202012284002 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 12.01.2021 |

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası “Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 dekabr tarixli 1211 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndinə əsasən **qərara alır**:

1. Dövlət Gömrük Komitəsi Kollegiyasının 2012-ci il 5 iyul tarixli 100/02/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının daşınması Qaydaları”na aşağıdakı məzmunda 2.16-1-ci bənd əlavə edilsin:

“2.16-1. Döş nişanı yalnız gündəlik və səhra geyim forması üçün nəzərdə tutulmuşdur, istiləşdirilmiş və ya demisezon gödəkcənin, kitelin və köynəyin sol tərəfdəki döş cibinin düyməsinə bərkidilir.”.

2. Hüquqi Təminat İdarəsi (Sənan Muxtarov) 3 gün müddətində qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**